# Azərbaycanın müasir tarixi siyasətçilərin şərhində: Əbdülrəhman Vəzirov (1-ci hissə)

written by BRI History Studies Group BAİ Tarix Araşdırmaları Qrupu

Şəxsi mənşəli hesab edilən memuarlar, xatirələr keçmiş haqqında adətən etibarsız və subyektiv mənbələr sayılır. Bu mənbələrdə müəllif təsvir edilən hadisələrin mərkəzində durur, hadisələr isə onun şəxsi nöqteyi-nəzərindən qiymətləndirilir. Lakin bu mənbələrin müsbət cəhəti də var; onlar müəllif haqqında, onun dünyagörüşü, sosial mövqeyinin səbəbləri, siyasi motivləri haqqında məlumat verə bilir. Bu yazı müasir Azərbaycanın liderlərindən biri olmuş, bəzilərinin uzaqgörən siyasətçi, bəzilərinin isə xalqın ruhunu, dilini anlamayan, siyasətdə naşı hesab etdiyi Əbdülrəhman Vəzirovun memuarlarında, müsahibələrində 1988-1990-cı illərin siyasi proseslərini necə şərh etdiyinə həsr olunub. 2009-cu ildə Vəzirovun *Mənim diplomatik xidmətim*[1], 2018-ci ildə isə *Parterin ilk cərgəsində* adlı kitabları dərc olunub.[2] Bundan başqa, Vəzirov bir neçə dəfə respublikaya rəhbərlik etdiyi dövrlə bağlı müsahibələr verib.[3] Bu yazı qeyd olunan materiallar əsasında hazırlanıb. Vəzirovun memuarları sovet siyasətçisinin müasiri və iştirakçısı olduğu prosesləri necə təhlil etməsini, siyasi ambisiyalarının necə və hansı şəraitdə formalaşmasını, siyasi təhdidlərə necə cavab verməsini anlamaq baxımından maraqlıdır. Avtobioqrafik yazıları Vəzirovu oxucuya Kommunist Partiyasının sadiq əsgəri, sosialist ideologiyasının təbliğatçısı, vətənpərvər sovet vətəndaşı kimi təqdim edir.

### ***Qısa tarixi arayış***

Əbdülrəhman Vəzirov 1930-cu ildə Bakıda anadan olub, əslən qarabağlıdır, özünün yazdığı kimi qarabağlı İbrahimxəlil xanın

vəziri Mirzə Camal Cavanşirin nəslindəndir.[4] Onun siyasi karyerası Azərbaycan Sənaye İnstitutunu bitirdikdən 2 il sonra başlayıb. 1954-cü ildə Vəzirov Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının (ALKGİ) katibi vəzifəsinə, iki il sonra isə həmin təşkilatın birinci katibi vəzifəsinə təyin olunub. Vəzirov 1959-1970-ci illərdə Moskvada Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqının katibi vəzifəsində çalışmış, qısa müddətə respublikada işləmiş (1970-1976-cı illər) və 1988-ci ilə qədər Azərbaycandan kənarda diplomatik sahədə fəaliyyət göstərmişdi. Vəzirov keçmiş Sovet İttifaqında ilk azərbaycanlı diplomat olub.

Vəzirov ilk dəfə respublikada yüksək vəzifəyə təklifi 1985-ci ildə alır. Lakin həmin vaxt Vəzirov bu vəzifədə işləyə bilməyəcəyinə SSRİ rəhbərliyini (Mixail Qorbaçov) inandıra bilir. Vəzirov müsahibələrinin birində bunu belə izah edir: Mən Azərbaycanda ayrı-ayrı klanların (Vəzirov klan dedikdə Azərbaycan bölgələrinin hakimiyyətdə təmsil olunan nümayəndələrini nəzərdə tutur) güclü mövqeyə malik olduğunu bilirdim, onlarla mübarizə apara bilməyəcəyimi də anlayırdım. Çünki 1970-ci illərdə məhz bu səbəbdən Bakını tərk edib Kəlküttəyə getməyə razı olmuşdum.[5] Qorbaçov ikinci dəfə eyni təkliflə Vəzirova üç il sonra 1988-ci ildə müraciət edir və "partiyanın sizin yardımınıza ehtiyacı var" deyir. Vəzirov bu sözdən sonra geriyə çəkilməyin düzgün olmayacağını düşünür və 1988-ci ilin mayında AzKP MK-nın birinci katibi vəzifəsinə təyin olunur.[6] Artıq bu zaman Dağlıq Qarabağdakı separatçı çıxışlar fonunda ölkədə hakimiyyətdən narazılıq artmağa başlamışdı.

Vəzirov bu vəzifəyə təyin olunmasının iki səbəbini qeyd edir. Birinci səbəb Vəzirovun əslən qarabağlı olması, bölgəni yaxşı tanıması və ailəsinin vaxtilə erməni-azərbaycanlı qarşıdurmasından əziyyət çəkməsi idi. Partiya bu təyinatla göstərmək istəyirdi ki, xalqın narahatlığını anlayan birini rəhbərliyə gətirərək problemi tezliklə həll edəcək. İkinci səbəb Vəzirovun Heydər Əliyevlə hər hansı qohumluq (Vəzirov Əliyevi Naxçıvan klanının rəhbəri kimi təqdim edir) əlaqəsinin

olmaması idi. Uzun illər ölkədən kənarda yaşamış Vəzirov respublikadakı qruplararası mübarizədən uzaq idi, Heydər Əliyevin lideri olduğu klan ilə heç bir əlaqəsi yox idi. Vəzirov respublikada birinci katib təyin olunanda Heydər Əliyev artıq yeddi ay idi ki, Sovet İttifaqı Kommunist Partiyası (Sov.İKP) Mərkəzi Komitəsinin (MK) Siyasi Bürosunun (SB) üzvlüyündən azad edilmişdi. Bu müddət ərzində Əliyev dəfələrlə MK və şəxsən Mixail Qorbaçovla əlaqə saxlamağa cəhd göstərsə də, uğur qazana bilməmişdi. Ehtimal etmək olar ki, Əliyevin hakimiyyətlə əlaqəni bərpa etmək cəhdləri onun hakimiyyətə qayıtmaq istəyi kimi qiymətləndirilib və bu, Vəzirovun namizədliyi üzərində təkid etmək üçün əsas olub.

Vəzirov 1990-cı il yanvarın 18-ə qədər Azərbaycan KP MK birinci katibi vəzifəsini tutmuş, həmin gün Moskvanın qərarı ilə tutduğu vəzifəsindən azad edilmiş və Azərbaycanı tərk etmişdi. Bundan sonra ona yenidən SSRİ Xarici İşlər Nazirliyində iş təklif edilsə də, Vəzirov bu təklifdən imtina edir və sovet rəhbərliyi ilə əməkdaşlıq etmək istəmədiyini bildirir.

***Vəzirovun təhvil aldığı Azərbaycan***

Əbdülrəhman Vəzirov Azərbaycan Kommunist Partiyası (AKP) Mərkəzi Komitəsinin (MK) 14-cü birinci katibi olmuş, bu vəzifədə Kamran Bağırovu əvəz etmişdi. Vəzirovun Bağırov haqqında fikirləri ümumən müsbət idi; Vəzirov Bağırovun rüşvətə bulaşmamasını yüksək qiymətləndirirdi, lakin eyni zamanda ölkədə yaranmış gərgin vəziyyətdə heç kimin onu tənqid etməməsi, ondan izahat tələb etməməsi Vəzirova qəribə gəlirdi. Artıq həmin dövrdə respublikada Ermənistanı tərk etmiş çoxlu sayda köçkünlər var idi, Sumqayıtda qarşıdurma zamanı zorakılıqlar baş vermişdi, bütün bunlar Kamran Bağırovun birinci katib olduğu dövrə təsadüf etsə də, heç kim onun adını çəkib ondan məsuliyyətli qərarlar qəbul edilməsini istəmirdi.[7] Kamran Bağırov həm respublikanın rəhbəri idi, həm də deyildi. Vəzirov Bağırovun iradəsiz bir kommunist olduğunu düşünürdü, çünki respublikada onun dövründə partiya

rəhbərliyi tərəfindən hər hansı bir təşəbbüsə cəhd edilməmişdi, əksinə, Heydər Əliyevin dövründə qəbul edilmiş qaydalar işlək idi, respublikanı Heydər Əliyevin təyin etdiyi kadrlar idarə edirdi. Vəzirovun bu fikirlərini 1988-1991-ci illərdə Azərbaycan SSR DTK-nin sədri olmuş Vaqif Hüseynov *Bir həyatdan daha çox* adlı memuarlarında təsdiq edir. Hüseynov yazır ki, Kamran Bağırovun respublika partiya komitəsinin rəhbəri təyin edilməsi nə onun biliyi, nə də idarəçilik qabiliyyəti ilə bağlı idi. Özünü respublikanın sahibi hesab edən Heydər Əliyev yerinə yerlisi, əslən yerevanlı olan birini qoymağı münasib hesab etmişdi. Vəzirovun isə bundan xəbəri yox idi.[8]

Vəzirov birinci katib təyin olunan kimi respublikanın iqtisadi vəziyyəti, xalqın sosial problemləri haqqında məlumatlar toplamağa başlayır. Vəzirov anlayırdı ki, mərkəzə göndərilən möhtəşəm iqtisadi göstəricilərlə dolu hesabatlar respublikanın real iqtisadi vəziyyətini əks etdirmir, artmaqda olan sosial gərginlik isə dərin kök salmış korrupsiya, tayfabazlıq, nepotizm kimi bəlaların nəticəsidir. Bununla əlaqədar Vəzirov 1988-ci ildə respublikada SSRİ DİN Sosialist Əmlakının Oğurlanmasına Qarşı Mübarizə Baş İdarəsinin (SMOQMBİ, xalq arasında OBXSS kimi tanınırdı) əməkdaşları tərəfindən xüsusi komissiyanın işlədiyini qeyd edir.[9] Komissiyanın hesabatında bildirilirdi ki, qırmızı beş illiklər dövründə ölkədə kölgə iqtisadiyyatı xeyli çiçəklənmiş, korrupsiya geniş kök salmışdı.[10] Vəzirov vurğulayır ki, respublikada sosial problemlərin həll olunmamasının ən böyük səbəbi Heydər Əliyevin dövründə qəbul edilmiş qərarların işlək olması, qeyri-effektiv idarəçilik idi. Məsələn, 1971-ci ildən respublikada fərdi yaşayış evlərinin tikintisi, Bakı ətrafı ərazilərdə, Abşeronda bağ sahələrinin icarəyə verilməsi qadağan edilmişdi.[11] Bu qərarlardan ən çox əyalətdə yaşayanlar əziyyət çəkirdi, gənc nəsil yaşayış evləri tikə bilmədiyi üçün ailə qura bilmir, kənd yerlərini tərk etməyə məcbur olurdu. Şəhərlərdə geniş yayılmış rüşvətxorluq, tayfabazlıq, yerlibazlıq isə iş tapmaqda ciddi əngəllər

yaradırdı.

Ermənistanı və Dağlıq Qarabağı tərk edənlərin 1988-1990-cı illərin siyasi proseslərində aktiv iştirakına toxunan Vəzirov yazır ki, 1987-ci ildən Şuşada Ermənistandan gəlmiş 1790 nəfər məskunlaşmışdı. Onlar boş qalmış kəndlərə getmək istəmir, münaqişə yaradır, ermənilərin Dağlıq Qarabağdan qovulmasını tələb edirdilər. Bu isə Stepanakertdə (Xankəndi) yaşayan azərbaycanlıların vəziyyətini gərginləşdirirdi. Ermənistandan gələnlərin bir qismini Tovuzda, Laçında, Xızı-Altıağac bölgəsində yerləşdirmək mümkün olmuşdu, onlar üçün lazımi şərait yaradılmışdı. Lakin çoxluq Bakıya can atırdı. Bakıda isə mənzil şəraitinin yaxşılaşdırılmasını gözləyən 68 min əhali var idi. Belə bir şəraitdə Ermənistandan, Dağlıq Qarabağdan gələnlərin əksəriyyəti Bakıya üz tutur, sosial gərginlik daha da artırdı. Vəzirov qaçqın və köçkünlərin Bakıya daxil olmasının qarşısını inzibati yolla almağın mümkünlüyündən bəhs edir, lakin bunu etmək istəmədiyini deyir: *onları heyvanların daşındığı vaqonlara yerləşdirmək lazım gələcəkdi, mən isə buna razı ola bilməzdim.*[12]

Respublikada 1980-ci illərin sonlarından artan sosial gərginliyin bir səbəbini də Vəzirov əlində külli miqdarda maliyyə vəsaiti toplamış, lakin hakimiyyətinin itirilməsi təhlükəsi ilə üz-üzə qalmış partiya və sovet dövlət nomenklaturasının pozucu fəaliyyətinin nəticəsi ilə izah edirdi. 1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında çıxış edən Vəzirov bildirir ki, Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) 55 gündür davam edən nümayişlərə rəhbərlik edənlər kölgə iqtisadiyyatının nümayəndələridir. Bu insanlar əslində əhalinin narazılığının, bütün sosial problemlərin səbəbkarlarıdır. Bu insanları vilayətin erməni əhalisinin problemləri maraqlandırmır. Vəzirov bu insanları mafioz qruplar adlandırır, lakin onların sovet idarə aparatı və partiya ilə əlaqəsinə toxunmur. Vəzirov eyni zamanda xatırlayır ki, SSRİ DİN  komissiyası 300 böyük iqtisadi cinayətin üstünü açmışdı. Vəzirov bu cinayətləri törədənlərin yüksək dövlət və partiya vəzifəsi tutduqlarını

demir, amma qeyd edir ki, cinayətkarlar məsuliyyətdən qaçmaq üçün vəziyyəti gərginləşdirməyə, insanların narazılıqlarını başqa istiqamətə yönəltməyə çalışırdılar.[13] Vəzirova bu mafioz qruplarla razılığa gəlmək, onların əli ilə müxalifəti aradan qaldırmaq təklifi də edilib, lakin Vəzirov buna razı olmayıb.[14] Respublikanın ağır sosial-iqtisadi vəziyyətinə işarə edən Vəzirov qeyd edir ki, Azərbaycanda hakimiyyətə gəlməsinin başlıca səbəbi əvvəllər də respublikada rastlaşdığı neqativ halları aradan qaldırmaq istəyi olub. Vəzirov respublikada mövcud olan vəziyyəti Heydər Əliyevin yarıtmaz rəhbərliyinin nəticəsi hesab etdiyi üçün ona münasibətinə aydınlıq gətirir.

Vəzirov altı il Heydər Əliyevin hakimiyyəti altında çalışıb. Vəzirovun Heydər Əliyevlə ilk görüşü 1970-ci ilin yanvarına təsadüf edir. Həmin görüşdə məqsəd Vəzirovu Azərbaycanda işə dəvət etmək olub. Heydər Əliyev Vəzirova bir neçə vəzifə təklif edib və əlavə edib ki, Kirovabaddakı (Gəncə) kriminal vəziyyət və rüşvətxorluğun səviyyəsi ilə bağlı məsələlər onun gününün yarısını alır. Məhz bu səbəbdən Vəzirov Kirovabad şəhər partiya komitəsinin katibi vəzifəsində işləməyə razılıq verir. Dörd il bu vəzifədə çalışdıqdan sonra MK katibi vəzifəsinə təyin olunur və iki il də bu vəzifədə çalışır. Məhz bu dövrdə Vəzirov Heydər Əliyevin dedikləri ilə etdiklərinin, çıxışları ilə əməllərinin üst-üstə düşmədiyini görür və respublikanı tərk etmək qərarına gəlir. Lakin Heydər Əliyev Vəzirovu respublikadan buraxmaq istəmir. Bu səbəbdən də Vəzirov Moskvadakı əlaqələrindən istifadə edir və Əliyevin razılığı olmadan SSRİ Xarici İşlər Nazirliyi xətti ilə təyinat alaraq respublikanı tərk edir. Vəzirov həmin qərarını bir şərq misalı ilə izah edir: *ya hökmdara tabe olub onun dəvəsini otarmalısan, ya da hökmdarın mülkünü tərk etməlisən.* Vəzirov konformist olub ətrafında baş verənlərə göz yummaq istəmədiyini və bunun üçün də respublikanı tərk etdiyini vurğulayır.

Vəzirov xatırlayır ki, Azərbaycan KP MK birinci katibi təyin olunandan sonra Heydər Əliyev tez-tez ona zəng edir,

Qorbaçovla görüşməsinə yardım etməsini istəyir. Lakin Vəzirovun səylərinə baxmayaraq, Qorbaçov onu qəbul etməkdən imtina edir, SSRİ Baş Prokurorluğunu Heydər Əliyevi məsuliyyətə cəlb etmək niyyətindən daşındırmağa cəhd etdiyi üçün hətta Vəzirovu məzəmmət də edir.[15] Qorbaçov Əliyevi respublikaya rəhbərlik etdiyi son illərdə mərkəzə göndərilən iqtisadi hesabatları saxtalaşdırmaqda ittiham edirdi. Vəzirov yazır ki, Qorbaçovdan başqa Sov.İKP Partiya Nəzarəti Komitəsinin sədri Mixail Solomentsov və sonradan onu əvəz etmiş Boris Puqo da Heydər Əliyevi respublikaya rəhbərlik etdiyi dövrdə vəzifə səlahiyyətlərindən sui-istifadə etdiyi üçün məsuliyyətə cəlb etmək istəyirdi, lakin "mən iki dəfə infarkt keçirmiş adama acıdığım üçün buna razı olmadım."[16] Vəzirov yazır ki, həbs olunmaqdan qorxan Əliyev SSRİ Vəkillər Kollegiyası katibinin məsləhəti ilə Naxçıvanda deputat seçilmək qərarına gəlir və deputat toxunulmazlığı əldə edir. Vəzirovun Heydər Əliyevin korrupsiyaya bulaşması və bu səbəbdən də SSRİ rəhbərliyinin ona mənfi münasibət bəsləməsini Rusiya Federasiyasının ilk prezidenti Boris Yeltsin *Bir mövzu ilə bağlı etiraf* adlı kitabında təsdiqləyir. Yeltsin bir bağlama sənədlə Qorbaçovun yanına gələrək Heydər Əliyev kimi bir insanla Siyasi Büroda yanaşı oturmağın utancverici olduğunu və bu məsələni həll etməyin vacibliyini dediyini yazır.[17] Vəzirov qeyd edir ki, sovet Azərbaycanı tarixinin yarısı Mircəfər Bağırovla (1933-1953) Heydər Əliyevin (1969-1982) rəhbərliyi dövrünə təsadüf edib. Bağırovun hakimiyyətini müsbət qiymətləndirən Vəzirov Heydər Əliyevin rəhbərliyini hakimiyyətdən sui-istifadə, tayfabazlıq, insanların simasızlaşdırılması dövrü kimi təsvir edir.[18]

### ***Hakimiyyət, müxalifət, ziyalılar***

Respublikanın sosial problemlərini müəyyənləşdirən Vəzirov qısa zamanda müxtəlif layihələrin icrasına başladığını qeyd edir. Vəzirov ilk növbədə sosial gərginliyi azaltmaq üçün DQMV-nin erməni icmasının kəskin narazılığına səbəb olan problemləri aradan qaldırmağa çalışıb, vilayətdə yeni poliklinika, xəstəxana inşa edilib, mebel fabrikası

genişləndirilib, Badarçay üzərində su anbarının tikilməsi ilə evlərin su ilə təchizatı təmin olunub, vilayət televiziyası təşkil edilib. Azərbaycanın müxtəlif bölgələrində fərdi yaşayş evlərinin, 31 xəstəxananın, tibb məntəqələrinin, hamamların tikintisinə başlanılıb. İnşaat işlərinin sürətlənməsi 1989-cu ildə Sumqayıtda bütün barakların (baraklar ümumi mətbəxi və sanitar qovşağı olan, adətən qoşun, xəstə və fəhlələrin müvəqqəti yaşaması üçün nəzərdə tutulan bir və ya iki mərtəbəli yüngül tikililər idi) sökülməsinə imkan yaratdı. Bir çox bölgələrə təbii qazın verilməsinə başlanıldı. 1989-cu ildə radio zavodda Korvet kompyuterlərinin istehsalına başlanıldı. Vəzirov xatırlayır ki, onun sosial layihələri cəmiyyət tərəfindən birmənalı qarşılanmayıb, məsələn, hamam tikdirməsi xalq arasında düzgün başa düşülmədi, onu Qarabağ problemini həll etməkdənsə hamam tikməkdə günahlandırdılar. Lakin o, düşünürdü ki, sosial problemlərin həll edilməsi narazılıqların azalmasına, etnik qarşıdurma və ərazi iddialarına son qoyulmasına səbəb ola bilər.

Vəzirov eyni zamanda müxtəlif sahələrdə rüşvətxorluğa qarşı fəal mübarizə apardığını vurğulayır, bununla əlaqədar ali təhsil müəssisələrinə qəbulun şəffaf keçirildiyini qeyd edir. Ticarətdə monopoliyanın qarşısını almaq üçün daxili rüsumların tətbiq edildiyini, nəticədə Bakı bazarlarında meyvə-tərəvəz bolluğunun yarandığını bildirir. Vəzirov ticarətdəki monopolistlərlə mübarizənin narazılıq doğurduğunu, İsa Qəmbətin bu haqda onu xəbərdar etdiyini də yazır.[19] “Bir nəfər mənə dedi ki, bu işi təşkil edənlər 2 həftə ərzində 200 miyon rubla qədər gəlir itiriblər. Onlar deyirlər ki, biz istənilən məbləği ödəməyə hazırıq, amma Vəzirov gələn ilin yayına qədər hakimiyyətdə qalmamalıdır.”[20]

Vəzirov rəhbərliyi dövründə ən böyük uğurunu hakimiyyətlə xalq arasında körpü yaratmasında görür. Vəzirov qeyd edir ki, partiya rəhbərliyi artıq uzun illər idi ki, xalqla təmasda olmurdu, rəhbərlər əyalətlərə gedəndə yollar bağlanılır, əhalinin şikayətləri hakimiyyət tərəfindən dinlənilmirdi, yəni fəhlə-kəndli hakimiyyətinin qapıları nə fəhlələrə, nə də

kəndlilərə açıq deyildi. Vəzirov qəlbən demokrat olduğunu, hakimiyyətin xalqa xidmət etməli olduğunu düşündüyünü bildirir. Bu məqsədlə o, hakimiyyəti xalqa əlçatan etmiş, yolların bağlanması praktikasından imtina etmiş, xalqla sıx təmas qurmağa çalışmışdı. Vəzriov özü də daxil olmaqla bütün rəhbər vəzifəli şəxslərin telefon nömrələrinin dərc edilməsi haqqında göstəriş vermiş, məsul şəxsləri xalqı dinləməyə vadar etmişdi.[21] Vəzirov "gələcəkdə hakimiyyətin bütün strukturunda təmsil olunanların xalqa hesabatlı olmasını istədiyini" bildirir. Bununla yanaşı Vəzirov hakimiyyəti dövrünə təsadüf etmiş (1989-cu ilin martında SSRİ Ali Sovetinə) yeganə seçkilərin demokratik şəraitdə keçirilməsini təmin etmək istəməmişdi.

Vəzirov xatirələrində Qarabağ münaqişəsi, bu münaqişədə mərkəz Moskvanın və Ermənistan SSR rəhbərliyinin, həmçinin Ermənistan və Azərbaycan ziyalılarının rolu haqqında geniş fikir yürüdür. Tarixə ekskurs edən Vəzirov yazır ki, sovet dövründə Dağlıq Qarabağın Ermənistana verilməsi ilə bağlı üç cəhd olub. Birinci cəhdin qarşısını Mircəfər Bağırov alıb, ikinci cəhdin qarşısını isə Nikita Xruşşov alıb. 1962-ci ildə ermənilər Böyük Ermənistan ideyasından danışaraq Türkiyə və Qarabağ ermənilərinin Ermənistanla birləşməsini istədiklərini deyəndə Xruşşov Ermənistana birləşmək istəyən bütün Qarabağ ermənilərinə avtobus və yükdaşıyanlar verməyə hazır olduğunu bildirib.[22] Vəzirov yazır ki, ermənilərin üçüncü cəhdinə Moskva çevik, adekvat reaksiya verə bilmədi, bunun əsas səbəbi isə Qorbaçova yaxın olan MK üzvlərinin, xüsusilə də  Siyasi Büronun üzvü Aleksandr Yakovlevin ermənipərəst mövqeyi idi.

Ermənistan rəhbərliyi ilə dəfələrlə görüşən Vəzirov münaqişənin sülh yolu ilə həll olunmasına çalışdığını deyir, lakin Ermənistan rəhbərliyinin Azrəbaycana qarşı düşmən mövqe tutduğunu vurğulayır. Ermənistan rəhbərliyinin Dağlıq Qarabağın erməni icmasının separatçı çıxışlarını dəstəkləməsini Vəzirov Qarabağ komitəsi ilə Ermənistan kommunistləri arasında hakimiyyət uğrunda mübarizə ilə izah edir. Vəzirov yazır ki, Qarabağ komitəsinin rəhbəri Levon Ter-

Petrosyan inanırdı ki, münaqişə onların hakimiyyətə gəlməsinə yardım edəcək. Bu fikir Azərbaycan müxalifətində də mövcud idi. Vəzirov bununla əlaqədar AXC yaradıcılarından Vaqif Səmədoğlunun sözlərini xatırlayır: "Ermənistanda gedən demokratik proseslərə mane olmaq lazım deyil." Vəzirov Vaqif Səmədoğlunun sözlərini belə şərh edir: Ermənistandakı demokratik proseslər Qarabağın Ermənistana birləşdirilməsi tələbindən başqa bir şey deyildi, bu tələbi demokratik proses adlandıran və onu təşviq edən AXC əslində separatçıları dəstəkləmiş olurdu. Vəzirov xüsusi olaraq vurğulayır ki, Qarabağ münaqişəsinin alovlanmasında təkcə Ermənistan deyil, digər müttəfiq respublikaların müxalif qüvvələri, o cümlədən xarici qüvvələr maraqlı idi. "Litvanın Syaudis-i,[23] Ukraynanın RUX-u,[24] Moldova və Estoniyanın Xalq Cəbhələri, Orta Asiya respublikalarında mili hərəkatlar erməni separatçılarının qələbə qazanmasında maraqlı idilər", çünki bunun SSRİ-nin dağılmasına səbəb olacağını düşünürdülər. Bu işdə xarici qüvvələr, *Azadlıq Radiosu*, *BBC*, *Azad Avropa*, *Amerikanın Səsi* də fəallıq göstərir, təxribatlarla münaqişəni alovlandırırdılar.[25] Vəzirov eyni zamanda vurğulayır ki, münaqişə başlayan zaman Azərbaycanda yarım milyonluq erməni icması var idi və nə separatçıları, nə də Ermənistan rəhbərliyini onların taleyi maraqlandırmırdı, Ermənistan rəhbərliyi Moskvanın bütün qəraralarına etinasız yanaşırdı.

Vəzirov xatirələrində və müsahibələrində Azərbaycan müxalifətinə münasibətini ətraflı izah edir. Vəzirov xatırlayır ki, hakimiyyətə gəldikdən bir ay sonra AXC təsis konfransı keçirdi. Bundan sonra respublikada müxtəlif siyasi qüvvələr, eyni zamanda kölgə iqtisadiyyatının üzvləri "Dağlıq Qarabağ münaqişəsi zəminində mənə qarşı birləşdilər."[26] AXC-nin radikal qoluna Əbülfəz Elçibəyin, solçulara Zərdüşt Əlizadənin, liberallara isə İsa Qənbətin başçılıq etdiyini yazan Vəzirov onların arasında fitnəkar, simasız qüvvələrin olduğunu vurğulayır və qeyd edir ki, bu qüvvələr bir qədər sonra Bakıda mağazaları dağıdaraq, şəxsi maşınlara xəsarət yetirərək talançılıqla məşğul olmağa başladılar. Vəzirov

xüsusi olaraq qeyd edir ki, 1993-cü ildə Füzuli ermənilər tərəfindən işğal olunmamışdan qabaq onun dayısının evi AXC üzvləri tərəfindən dağıdılmışdı. Bununla yanaşı Vəzirov AXC sıralarında ağıllı, müdrik insanların olmasını da inkar etmir.

Vəzirov müxalifəti tənqid etsə də onu qadağan etməyin əhəmiyyətsiz olduğunu düşünüb və müxalifətlə əməkdaşlıq etməyə üstünlük verdiyini, xüsusilə Qarabağ probleminin həllində müxalifətlə konstruktiv dialoq qurmağa çalışdığını bildirir. Vəzirov AXC-nin rəsmi qeydiyyatına, qəzetlərinin nəşrinə icazə verdiyini, nümayəndələrinin televiziyada çıxışına imkan yaratdığını yazır. 1989-cu ilin aprelində Vəzirov AXC üzvlərini qəbul edərək Qarabağ uğrunda birgə mübarizə üçün gücləri birləşdirməyə cəhd göstərib, lakin AXC əməkdaşlıq etmək istəməyib. AXC tətil komitəsinin iclaslarında fəhlələr kütləvi tətillərə çağrılırdı və tətillərin məqsədinin Qarabağı müdafiə etmək olduğu bildirilirdi. Vəzirov yazır ki, tətillərin Dağlıq Qarabağı necə müdafiə edəcəyini anlaya bilmirdi. Bakıda keçirilən tətillərdə bir milyondan çox insanın iştirak etməsi haqqında məlumatları həqiqətdən uzaq sayan Vəzirov qeyd edir ki, həmin dövrdə paytaxtda cəmi 1.2 milyon əhali yaşayırdı, sənaye müəssisələrində çalışanlar isə bu mitinqlərə qoşulmur, qayda-qanunu qorumağa çalışırdılar.[27]

Vəzirov müxalifətin məsuliyyətsiz şüarlarının Azərbaycan və azərbaycanlılar üçün faciəli nəticələrə səbəb olduğunu qeyd edir. Müxalifətin tez-tez Cənubi Azərbaycanı birləşdirmək haqqında səsləndirilən şüarları tezliklə Tehranı Ermənistanı dəstəkləməyə vadar etdi, Dağlıq Qarabağda azərbaycanlılar üçün muxtariyyətin tələb edilməsi isə azərbaycanlı icmanın tamamilə DQMV-dən qovulması ilə nəticələndi. Vəzirov yazır ki, 1990-cı ilin yanvarında Bakıya qoşun yeridilməsinin səbəbi də AXC-nin məsuliyyətsiz addımları idi. 1989-cu ilin dekabırında Cəlilabad rayon partiya komitəsinin və milisin binası dağıdıldı, hakimiyyət AXC nümayəndələri tərəfindən ələ keçirildi, Naxçıvanda İranla sərhəd zolaqları dağıdıldı,

dəmiryolları blokadaya alındı. 1990-cı ilin yanvarında AXC Lənkəranda sovet hakimiyyətini devirərək Talış-Muğan respublikasının yaradıldığını elan etdi, Bakıdakı mitinqlərdə “ermənilərsiz Bakı” şüarları səsləndirilməyə başlandı. Ardınca AXC qeyri-qanuni silahlı dəstələr yaratdı. Bütün bunlar SSRİ rəhbərliyi tərəfindən qanuni hakimiyyətin devrilməsinə cəhd kimi qiymətləndirildi, hərbiçiləri qəti addım atmağa vadar edən isə AXC silahlı dəstələrinin Bakı ətrafında saxlanılan nüvə sursatı anbarlarına hücum ehtimalı oldu. Beləliklə, Vəzirov iddia edir ki, 1990-cı ilin yanvarında baş verənlər AXC rəhbərliyinin düşünülməmiş, məsuliyyətsiz siyasətinin mənticəsi idi. AXC rəhbərliyi yanvar hadisələrini 1990-cı ilin yazında keçirilməsi nəzərdə tutulan seçkilərdə mümkün qələbəsinin qarşısının alınması cəhdi kimi şərh etsə də bu, həqiqətə uyğun deyildi. Vəzirov seçkilərdə AXC-ın uğur qazanacağının mümkünsüzlüyünə inanırdı.  Vəzirov yazır ki, həmin hadisələrdən bir müddət sonra Bakıya gələndə ilk işi Şəhidlər xiyabanını ziyarət etmək olub, lakin orada AXC rəhbərlərindən bir nəfərin də məzarını tapa bilməyib.

1990-cı ilin yanvarında Bakıya qoşun yeridilməsi və qan tökülməsinin beynəlxalq aləmdə rezonans doğurmamasının, sovet hakimiyyətinin qınanmamasının səbəbi bu əməliyyatın milli qırğının qarşısının alınması kimi təqdim edilməsində idi. 1989-cu ildə ABŞ dövlət katibi Ceyms Beyker (James Baker) SSRİ Xarici İşlər naziri Eduard Şevardnadze ilə danışıqlar zamanı bildirib ki, SSRİ rəhbərliyi vəziyyəti nəzarətə almaq üçün Bakıda ciddi tədbirlərə əl atarsa ABŞ rəhbərliyi bunu anlayışla qarşılayacaq.[28] Beynəlxalq aləmin Azərbaycan və azərbaycanlılara münasibətinə toxunan Vəzirov yazır ki, Ermənistandan bütün azərbaycanlı icması qovulanda nə beynəlxalq təşkilatlar, nə də sovet rəhbərliyi bunu qınamadı.

Vəzirov AXC-nin hakimiyyətə gəlməsini milli-azadlıq hərəkatının nəticəsi kimi görmür, qeyd edir ki, bu, SSRİ-də hakimiyyətin zəifləməsi nəticəsində mümkün olub. Vəzirov vurğulayır ki, hakimiyyət zorakılıq hüququndan istifadə etmək istəmədikdə bu hüququ başqaları ələ keçirir və hakimiyyətin

həmin hüququ geri alması olduqca çətinləşir.[29] Vəzirov bunu sovet hakimiyyətinin erməni separatçılara qarşı sərt tədbir görmək istəməməsi ilə bağlı yazır:  hakimiyyət zorakılıq hüququndan istifadə etmədi,  bu hüquq separatçılar, özlərini müxalifət adlandıran qüvvələr tərəfindən ələ keçirildi. Bu qüvvələr isə qısa zamanda mafioz qrupların əlində oyuncağa çevrildi. Vəzirov bunu əsas götürərək yazır ki, etməni-azərbaycanlı qarşıdurması nə dini, nə də etnik münaqişədir, bu münaqişə siyasi xarakter daşıyır.[30] Vəzirov eyni zamanda qeyd edir ki, bölgəni yaxşı tanıdığı üçün onu bölüşdürməyin mümkün olmayacağını anlayırdı.

Vəzriov 1992-ci ildə AXC sıralarında bir-biri ilə rəqabət aparan 22 qrupun yarandığını bildirir. Bu qrupların hamısının adında "milli" sözü var idi, lakin onları millət və milli maraqlar az düşündürürdü.[31] Vəzirov köçkünlərin və Qarabağdan qovulmuşların AXC-nı dəstəkləməsini, onların rəhbərlərinə inanmasını belə izah edir: bu insanları AXC vasitəsilə hakimiyyətə gəlməyə can atan qüvvələr manipulə edirdilər. AXC arxasınca gedənlər kütlə idi, AXC arxasında kütləni görüb bütün dünyanın onun arxasında durduğunu düşünürdü, dərk etmirdi ki, kütlədən istifadə edənlər əsil siyasətçilərdir və kütlə həmin siyasətçiləri hakkimiyyətə gətirmək üçün çalışır.[32] Vəzirov xüsusi olaraq vurğulayır ki, bu fikirlərini görüşlərin birində Əfülfəz Elçibəyə deyib, lakin Elçibəy ilk vaxtlar onun sözlərinə əhəmiyyət verməyib, sonralar isə onun haqlı olduğunu etiraf edib.[33] Vəzirov AXC-nın qısa zamanda hakimiyyəti itirməsinin iki səbəbini qeyd edir. Əvvəla, xalq onların idarə etmək qabiliyyətində olmadığını anladı, ikincisi isə onlar Qarabağı müdafiə edə bilmədilər, torpaqlar itirildi.

Azərbaycan ziyalılarının 1980-90-cı illərin müxalifət hərəkatında iştirakını təhlil edən Vəzirov yazır ki, 1985-ci ildən respublikada tarixi təftişə yönəlmiş *Oğuz*, *Tərəqqi*, *Varlıq* kimi təşkilatlar fəaliyyət göstərirdi, onlar gənc ziyalıların nümayəndələrindən ibarət idi. Ziyalıların bir hissəsi bu təşkilatlara qoşulmuşdu və anti hökumət şüarları

səsləndirdikləri üçün hansı vəzifələri tutacaqları ilə maraqlanırdılar. Vəzirov müxalifət cəbhəsində aktivlik göstərənlərin sovet cəmiyyətində uğur qazana bilməyənlərdən ibarət olduğunu vurğulayır. Bəzi ziyalılar bu hərəkatın hansı faciəyə səbəb olacağını sonradan dərk etdilər.[34] Vəzirov eyni zamanda elmi araşdırmalarda Azərbaycan ziyalılarının, xüsusilə tarixçilərin Ermənistan ziyalılarına uduzduğunu yazır. Vəzirov vurğulayır ki, Ermənistan Elmlər Akademiyasının alimləri illərlə güclərini tarixi faktların saxtalaşdırılmasına, separatçılığın əsaslandırılmasına yönəltmişdilər. Azərbaycanın elmi potensialının zəifliyi, alimlərin acizliyi isə göz qabağında idi. Vəzirov xatırlayır ki, Qarabağ münaqişəsinin həlli üçün ziyalıların nə düşündüyünü anlamaq, onlardan dayaq almaq istəyib. Ziyalılarla görüşlərdən heç bir nəticə əldə edə bilmədiyini qeyd edən Vəzirov yazır ki, bütün görüşlərdə ziyalılar yalnız küçələrin, meydanların adlarını dəyişməkdən danışırdılar. “Azərbaycan SSR Elmlər Akademiyası Prezidium üzvləri ilə görüşdən əvvəl son 5 ildə Azərbaycan alimlərinin respublikanın sosial-iqtisadi və mənəvi inkişafı ilə bağlı hansı təşəbbüslər irəli sürdüyü ilə maraqlandım, məlum oldu ki, belə bir təşəbbüs olmayıb. Yazıcılar Birliyinin üzvləri ilə görüş də bir nəticə vermədi, məlum oldu ki, onların potensialından istifadə olunmayıb, onlar xırda məsələlərlə maraqlanırlar. Qarabağ faciəsi ilə üz-üzə qalmış xalqa güclü ziyalı lazım idi, amma məlum oldu ki, xalqın parçalanmasının təşəbbüskarı elə ziyalıların özləridir.”[35]

Vəzirov azərbaycanlılar tərəfindən ona ünvanlanan bir çox suallara verdiyi cavabları xatirələrinə əlavə edib. Məktubların birində Vəzirovun naxçıvanlılara neqativ münasibətinin səbəbi soruşulur. Vəzirov yazır ki, naxçıvanlılar arasında çoxlu sayda dostları olub, heç bir zaman Azərbaycanı bölgələrə bölməyib və yerlibazlığın qəti əleyhədarı olub. Lakin onun hakimiyyəti dövründə naxçıvanlıların narazılığını doğuran hallar olub. Bu halların səbəbkarı isə onun özü deyil, partiyanın verdiyi qərarlar

olub. Vəzirov yazır ki, 1988-ci ildən başlayaraq Moskva partiya və dövlət aparatının ixtisarına başlayıb. Azərbaycanda yüksək vəzifələrin böyük hissəsi ləğv edilib. İxtisarlar nəticəsində MK-da 15 şöbədən cəmi 5-i qalıb, mərkəzi aparat işçilərinin sayı isə 50% azalıb. Azərbaycanda da yüksək vəzifələri Naxçıvan klanının üzvləri tutduğundan vəzifəsini itirmiş kifayət qədər naxçıvanlı var idi. Narazılıq doğuran da məhz bu idi.[36]

Vəzirov xatirələrində hakimiyyət və lider haqqında fikirlərini bölüşür və yazır ki, adətən ölkəni əyalətlərdən gələnlər idarə edir, onlar karyera üçün hər şey etməyə hazır olanlardır, onlarda özlərini önə çəkmək kimi unikal qabiliyyət var. Vəzirov güclü elit təbəqənin mövcud olduğu mühitdə əyalətdən gələnlərin hakimiyyətə necə yüksəlməsinə də aydınlıq gətirir. Adətən elit təbəqələr öz aralarına yadları qəbul etmirlər. Lakin elit təbəqələr arasında parçalanma baş verdikdə onlar öz içərilərindən kiminsə yüksəlməsinə imkan vermir, kənardan birini içəriyə dəvət edirlər, çünki düşünürlər ki, bu kənar şəxsi idarə etmək, nəzarətdə saxlamaq asan olacaq. Lakin elit təbəqə unudur ki, adət etmədiyi, yad mühitə düşmüş əyalət nümayəndəsi mövqeyini qorumaq üçün tezliklə öz yerlilərini arxasınca dartır, onların köməyi ilə mövqeyini möhkəmlətməyə çalışır və buna nail olur.

***Nəticə***

Əbdülrəhman Vəzirov sovet nomenklaturasının səciyyəvi nümayəndəsidir. Gənc yaşlarında Avropa və Amerikanın inkişaf etmiş dövlətlərinə səyahət etmək, qərb mədəniyyəti, cəmiyyəti və siyasi sistemi ilə yaxından tanış olmaq imkanına malik olmuş Vəzirov sovet cəmiyyətini, marksizm-lenininzm ideologiyasını daha cazibədar və ədalətli hesab edib. Vəzirov Kommunist partiyasının ideyalarına inanan, sosial layihələrini, hətta sərt idarəçilik sistemini dəstəkləyən kommunist olub. Qəlbən demokrat olduğunu iddia edən Vəzirov Stalinin idarəetmə metodlarını tarixi zərurət hesab edib, Kommunist partiyasının təbliğatı və təşviqatı altında mükəmməl

sovet vətəndaşnın yetişdirildiyinə inanıb. Vəzirov sovet dövlətinin son illərində həm partiya rəhbərliyində, həm də cəmiyyətdə baş verən mənəvi-etik geriləməni böyük faciə hesab edib.

Sözsüz ki, rəhbər vəzifəyə təyin olunan zaman respublikada mövcud olan böhranlı vəziyyətə görə Vəzirovu günahlandırmaq olmaz. Vəzirovun hakimiyyəti dövründə Azərbaycan heç bir torpaq itirməyib, yanvar ayında Bakıya qoşun yeridilməsində də onun rolu olmayıb, bu qərar onunla razılaşdırılmadan qəbul edilib. Bu hadisəni sovet rəhbərliyinin ona qarşı təxtibatı kimi qəbul edən Vəzirov bundan sonra hakimiyyətlə əməkdaşlıqdan imtina edib.

Vəzirov sovet hakimiyyəti ilə münasibətlərini təhlil edərkən qeyri-səmimi davranır, hakimiyyəti tənqid edərkən onun bir nümayəndəsi, dövlət nomenklaturasının üzvü kimi deyil, kənar şəxs kimi çıxış edir. Komformist olmaq istəmədiyini deyən Vəzirov əslində sovet hakimiyyətinin bir qrup seçilmiş təbəqə, bürokratik aparat üçün yaratdığı bütün imkanlardan bəhrələnə bilib, sovet hakimiyyəti altında əzilən, bütün hüquqlarından məhrum edilmiş, tamamilə dövlətin iradəsindən asılı vəziyyətə salınmış sovet vətəndaşlarının mənəvi-etik deqradasiyasının səbəbini görmək istəməyib. Vəzirov mafioz qruplar adlandırdığı insanların partiya və dövlət orqanlarında yüksək vəzifə tutanlardan ibarət olduğunu, kölgə iqtisadiyyatının da onlar tərəfindən idarə edildiyini bilsə də bunu etiraf etmir. Vəzirov sovet hakimiyyəti ilə sovet cəmiyyəti arasında artıq illərdir ki, dərin bir uçurumun olduğunu görsə də onun səbəbləri haqqında danışmaqdan çəkinib.

Bununla belə Vəzirov azərbaycan xalqının daha yaxşı idarəçiliyə, daha yaxşı rəhbərə, sosial həyata layiq olduğunu, demokratiyanın azərbaycan xalqına yad olmadığını hesab edirdi. Vəzirov hakimiyyəti xalqa əlçatan etməyin, hakimiyyətdə olanların fəaliyyətini isə cəmiyyətin nəzarətinə tabe etməyin yolları haqqında düşündüyünü deyirdi.

**Qeydlər və istinadlar:**


[1] Везиров А.Р. Х. Моя дипслужба [воспоминания]. Художественная литература, 2009. 189 с.

[2] Везиров А. Х. В первых рядах партера, Художественная литература, 2018, 278 с.

[3] О событиях 20 января 1990 года в Баку. 215 KL https://www.youtube.com/watch?v=-AyJsXO7XLg

[4] Везиров, А. Х. Моя дипслужба. Художественная литература, 2009.

[5]Абдурахман Везиров: о дружбе с Гагариным, “письме Алиеву” и Карабахе / Paxlava Production. https://www.youtube.com/watch?v=mXAPDex9he0.

[6] Везиров А. Х. В первых рядах партера. Художественная литература, 2018, 185.

[7] Везиров, 2018, 188.

[8] Гусейнов В. Больше, чем одна жизнь. Красная звезда, 2013, книга 1, 369–70.

[9] Везиров, 2018, 197.

[10] Yenə orada, 197.

[11] Yenə orada. 233-4.

[12] Везиров, 2018, 224.

[13] Yenə orada,

[14] Yenə orada, 205.

[15] Везиров, 2018, 177.

[16] Yenə orada.

[17] Ельцин Б. Исповедь на заданную тему. Средне-Уральское книжное издательство, 1990, 57.

[18] Везиров, 2018, 175.

[19] Yenə orada, 236.

[20] События 20 января 1990 года. 215 kл. https://www.youtube.com/watch?v=-AyJsXO7XLg

[21] Везиров, 2018, 192.

[22] Yenə orada, 208-9.

[23] Syaudis (Hərəkat) 1988-1990-cı illərdə Litva SSR-da ictimia-siyasi təşkilat olmuşdur.

[24] RUX (Ukrayna Milli Hərəkatı) 1989-cu ildə Ukrayna SSR-da yaradılmış siyasi partiyadır.

[25] Везиров, 2018, 198.

[26] Yenə orada, 200.

[27] Yenə orada, 201.

[28] Yenə orada, 229.

[29] Везиров, 2018, 256.

[30] Yenə orada, 212.

[31] Везиров, 2018, 203-4.

[32] Yenə orada.

[33] Yenə orada.

[34] Yenə orada, 199.

[35] Везиров, 2018, 194.

[36] Yenə orada, 225.